Elmin müxtəlif sahələrində əldə olunmuş nəticələri müzakirə etmək, habelə doktorantların və gənc tədqiqatçıların elmi yaradıcılığını stimullaşdırmaq məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı 2012-ci ilin dekabr ayında Azərbaycan Memarlıq və İnşaat Universitetində keçirilsin.

2. Konfransın Təşkilat komitəsi yaradılsın (əlavə 1) və bölmələrə rəhbərlik edəcək alimlərin siyahısı təsdiq olunsun (əlavə 2).

3. Ali təhsil müəssisələrinin rektorları:

3.1. Doktorantların və gənc tədqiqatçıların məruzə tezislərini 2012-ci il 15 oktyabr tarixinədək Təhsil Nazirliyinin Elm şöbəsinə təqdim etsinlər.

4. Elm şöbəsinə (G.Hüseynova) tapşırılsın:

4.1. Konfransın proqramının 2012-ci il 10 noyabr tarixinədək hazırlanmasını təmin etsin.

4.2. Konfransın keçirilməsi ilə əlaqədar lazımi təşkilati məsələləri həll etsin.

5. Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoruna (G.Məmmədova) tapşırılsın:

5.1. Konfransın yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaratsın.

5.2. Konfransın proqramının və məruzə tezislərinin nəşrini təmin etsin.

6. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində, "Təhsil xəbərləri" məlumat-informasiya məcmuəsində dərc olunmasını və Nazirliyin veb-saytında yerləşdirilməsini təmin etsin.

7. Əmrin çoxaldılıb müvafiq yerlərə çatdırılması Ümumi şöbəyə (X.Fərəcov) tapşırılsın.

8. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

ƏSAS: Elm şöbəsinin iş planı.

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***23 aprel 2012-ci il***

***№ 640***

**Əlavə:**

1. Konfransın Təşkilat komitəsi

2. Bölmə rəhbərlərinin siyahısı